AzQAC Rəyasət Heyətinin
27 dekabr 2006- cı il tarixli qərarı
ilə təsdiq olunmuşdur.
Protokol N⁰ 06

Təsdiq edirəm:
AzQAC-nin prezidenti
N.Aslanov ____________
Tarix 08.01.2007

# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin

# KÖNÜLLÜLÜK SİYASƏTİ

# AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN KÖNÜLLÜLÜK SİYASƏTİ

## 1. Müqəddimə

Bu siyasətin məqsədi:

1.1 Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatında könüllülüyün vacibliyini bir daha vurğulamaq
1.2 Azərbaycan Qızıl Aypara Cəmiyyətində könüllülüyə qarşı olan dəyərləri və münasibəti inkişaf etdirmək
1.3 Azərbaycan Qızıl Aypara Cəmiyyətində könüllü olan insanların vəzifə və öhdəliklərini təyin etmək

## 2. Fəaliyyətin müəyyən olunması

Qızıl Xaç və Qızıl Aypara Hərəkatında könüllü fəaliyyət:

2.1 Maddi, material marağla, sosial, iqtisadi və siyasi təzyiqlə deyil, məhz könüllü olan insanın öz istəyi ilə həyata keçirilir.
2.2 Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərinə uyğun olaraq zavallı insanlara yardımçı olur
2.3 Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətinin tanınmış nümayəndələri tərəfindən təşkil olunur

***Qızıl Aypara Könüllüsü*** *mütəmadi və ya təsadüfi olaraq (il ərzində bir və ya iki dəfədən az olmayaraq ) Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllü fəaliyyətlərində iştirak edən şəxsdir.*

***Qzıl Ayparanın fəal könülllüsü*** *Qızıl Aypara Cəmiyyətinin fəaliyyətlərində və tədbirlərində il ərzində 240 saat sərf edən şəxsdir.*

***Qızıl Aypara üzvü*** *Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnamə və qaydalarının tələb etdiyi üzvlük şərtləri ilə rəsmi olaraq razı olan, və adətən ali rəhbərlik orqanlarına seçilə və nümayəndə seçə bilən şəxslərdir*

***Qızıl Aypara Könüllüsü*** *Azərbaycan Qızıl Aypara Cəmiyyətinin üzvü ola da, olmaya da bilər.*

*Bu siyasət Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Könüllülərinə aiddir.*

## 3. Əhatə

Bu siyasət Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün könüllülərinə şamil olunur.

## 4. Əsas Prinsiplər

Könüllülük, şəxsin və ya bir neçə şəxsdən ibarət olan qrupun Fundamental Prinsiplərdə əks olunan Könüllü Xidmət vərdişləri çərçivəsində həyata keçirilməsi deməkdir.

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti:**

4.1 Zavallı insanların rifahlarının yaxşılaşdırılmasına, icmaların və vətəndaş cəmiyyətinin inkişafı və gücləndirilməsinə yönəlmiş könüllülük fəaliyyətinin yayımı ilə məşqul olur

4.2 Könüllülüyü Azərbaycan Qızıl Aypara Cəmiyyəti üçün Fövqəladə Hallar zamanı işləməyə hazır olan insan qruplarını yaratmaq və dəstəkləmək vasitəsi kimi tanıyır və qiymətləndirir.

4.3. Bütün könüllüləri əsasən onların şəxsi təşəbbüs təcrübəsi, bilik və bacarıqlarına görə qiymətləndirir.

## 5. Bəyanat

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti:**

5.1.1 Həm könülüllülərin, həm də özünün hüquq və öhdəliklərini özündə əks etdirən davranış kodeksinin Rəyasət Heyəti tərəfindən qəbul olunmasını təmin etməlidir

5.1.2 Könüllüləri Hərəkata uyğun olan, tam açıq və aydın təsvir olunmuş iş və tapşırıqlar üçün cəlb etməlidir.

5.1.3 Könüllüləri öhdəlik və imkanlarına əsasən cəlb etməlidir

5.1.4 Könüllüləri irqə, milliyyətə, cinsə, dini etiqada, yaşa, səriştəsizliyə fərq qoymadan cəlb etməlidir.

5.1.5 Effektiv və cins baxımından həssaslıq duyulan xidmətlərin göstərilməsi və fəaliyyətlərin həyata keçirilməsi üçün, Milli Cəmiyyətin həyata keçirilən layihələrində könüllü kişi və qadınların müvafiq iştirakını təmin etməlidir

5.1.6. Könüllülərə Hərəkat qarşısında cavabdehliyi yerinə yetirmək üçün, cəlb olunduqları fəliyyət çərçivəçində məqsədə çatmaq üçün, hər hansı bir fövqəladə hallara cavabvermə fəaliyyətində onların cəlb oluna biləcək fəaliyyətdə iştirakı üçün Milli Cəmiyyət tərəfindən müvafiq təlimlər təşkil edilməlidir.

5.1.7 Könüllüləri cəlb olunduqları fəaliyyətlərin həyata keçirilməsi üçün imkan daxilində müvafiq avadanlıqla təmin etməlidirlər

5.1.8 Mümkün olduqda və uyğun gələn yerlərdə könüllüləri həvəsləndirmək məqsədilə mükafatlandırmaq, və fərdi inkişaf imkanları yaratmalıdır

5.1.9 Proqramların tərtibatı, inkişafı, həyata keçirilməsi və qiymətləndirilməsinin bütün mərhələlərində könüllülərin fikirlərinin nəzərə alınmasını təmin etməlidir

5.1.10 Nəzərə almalıdır ki, könüllülər öz fəaliyyəti nəticəsində pullu iş qüvvəsini əvəz etmir və onun itirilməsinə gətirib çıxarmır.

5.1.11 İnsanlara gördüyü işlərə görə məvacib verirsə, onlar daimi işçi, müqavilə əsasında olan işçi və ya müvəqqəti işçi kimi fəaliyyətlərə cəlb edirlərsə, onları əmək məcəlləsində göstərilən bütün hüquqlarla təmin etməlidir.

5.1.12 Ali rəhbərlikdə təmsil olunan könüllüləri müvafiq treyninq və inkişaf imkanları ilə təmin etməlidirlər

5.1.13 İctimaiyyətdə, şəxsi sektorda və vətəndaş cəmiyyətində könüllülüyü həvəsləndirməklə məşqul olan təşkilatlarla əməkdaşlığı qurmalıdır.

**5.2. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Könüllülüsündən aşağıdakılar gözlənilir:**

5.2.1 Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının prinsiplərinə uyğun olaraq hərəkət etmək və onların yayımını həyata keçirmək

5.2.2 Emblemdən istifadə qaydalarına hörmət etmək və onun sui-istifadəsinin qarşısını almaq

5.2.3 Yüksək keyfiyyətlə işləməyə çalışmaq

5.2.4 Milli Cəmiyyətin könüllülər üçün tərtib etdiyi Davranış Kodeksini və ya Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyanın Könüllü Xidmətin Əsasları və Etikası Kodeksini imzalamaq və onlara uyğun olaraq hərəkət etmək

5.2.5 Öz bilik və bacarıqlarından asılı olaraq, Milli Cəmiyyətlə razılaşdırıldığı kimi, fövqəladə hallar zamanı hazır olmaq

5.2.6 Zavallı insanların ehtiyaclarına cavab vermək, onların, özlərinə kömək imkanlarını və könüllülüyü gücləndirmək

**5.3. Bütün könüllülər aşağıdakı hüquqlara malikdirlər:**

5.3.1 Nizamnamədə göstərildiyi kimi, Milli Cəmiyyətə üzv olmağı seçməyi

5.3.2 Razılaşdırılan tapşırığları və vəzifələri yerinə yetirmək üçün müvafiq treyninq və seminarlarda iştirak edərək könüllülük siyasətinin inkişafına öz töhfələrini verməlidirlər

5.3.3 Razılaşdırılan tapşırığları və vəzifələri yerinə yetirmək üçün müvafiq avadanlıqlarla təchiz olunmalıdırlar

5.3.4 Konüllü Xidmətin Əsasları və Etikası Kodeksinə uyğun olaraq hər hansı bir tapşırıq və ya vəzifəni qəbul etmək və ya ondan imtina etmək

**ARAYIŞ**

Könüllülük Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri fəaliyyətlərinin bir çox aspektlərinə təsir edir: proqramların inkişafı, həyata keçirilməsi və qiymətləndirilməsi, milli və beynəlxalq qurumlarda təmsil olunma. Bu siyasət yalnız Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gender, Gənclər, Fövqəladə Hallara Hazırlıq və Sağlamlıq siyasətləri ilə birgə nəzərə alınmalıdır.